# 15 İyun Azərbaycan xalqının Milli Qurtuluş Günüdür

***Keçmiş SSRİ-nin süqutu nəticəsində bu imperiyanın tərkibinə daxil olan digər respublikalar kimi Azərbaycan da 1991-ci ilin oktyabrın 18-də öz müstəqilliyini elan etdi. Ancaq başqa respublikalardan fərqli olaraq qonşu ermənistanın vətənimizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağı silah gücünə ilhaq etməyə başlaması və ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi üzündən müstəqilliyimizin ilk illəri çox ağrı-acılı başladı. Ölkədə tez-tez hakimiyyət dəyişikliyi baş versə də ictimai-siyasi vəziyyət yaxşılığa doğru dəyişmir, əksinə daxili xaos və anarxiya daha böyük vüsət alırdı.***

1993-cü ilin may ayının sonu, iyun ayının əvvəllərində ölkə idarəolunmaz hala gəlmişdi və artıq vətəndaş müharibəsinin bir addımlığında idi.

İctimai-siyasi sahədə olduğu kimi iqtisadiyyatda da dağılma baş verirdi. İşbazlar fürsətdən istifadə edərək zavod və fabriklərdəki qiymətli dəzgahları metal qırıntısı qiymətinə xaricə ötürürdülər. Ərzaq qıtlığı başlamış, uzun çörək növbələri yaranmışdı.

Hakimiyyətdə olmuş AXC-Musavat cütlüyü artıq xalq arasında nüfuzunu itirmişdi. Bunun nəticəsi idi ki, xalq bu ağır günlərdə mövcud hakimiyyəti dəstəkləmədi və haqlı olaraq çıxış yolunu ulu öndər Heydər Əliyevin yenidən Azərbaycanda hakimiyyətə gəlməsində gördü.

Bütün həyatını xalqına həsr etmiş ulu öndər xalqın çağırışına müsbət cavab verdi və 1993-cü ilin iyun ayının 9-da Bakıya gəldi.

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunur.

Ali sovetin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında ulu öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, ümummilli liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün manеələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayır, ona mane olmağa çalışırdı. Vəziyyətdən səbirlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü.

Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yöndə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi.

Ulu öndərin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir.

**Qüdrət SƏMƏDOV.**
**«Qəbələ»**

## FHN-nin Şimal-qərb Regional Mərkəzində



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 iyun 2007 -ci il tarixli Sərəncamı ilə 18 iyun ölkəmizdə "İnsan Hüquqları Günü" kimi qeyd olunur. Bu məqsədlə Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzində "Azərbaycanda insan haqları və insan hüquqları"mövzusunda maarifləndirmə tədbiri keçirilmişdir.

Tədbirdə mərkəzin əməkdaşları iştirakı etmişlər.

Çıxış edən natiqlər Azərbaycanda insan haqları və hüquqları haqqında hüquqi-normativ sənədlər, qanunlar, konstitusiyamızda əksini tapmış hüquq və azadlıqlara dair maddələr haqqında tədbir iştirakçılarına ətraflı məlumatlar vermişlər.

**FHN-nin Şimal-qərb Regional Mərkəzinin maarifləndirmə sektoru.**

## Rayon təhsil şöbəsində hesabat yığıncağı

***Qəbələ Rayon Təhsil Şöbəsinin cari tədris ili üzrə fəaliyyətinə dair hesabat yığıncağı keçirilib.***

***Tədbirdə iştirak edən Azərbaycan RespublikasıTəhsil Nazirinin müavini Məhəbbət Vəliyeva "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində həyata keçirilən tədbirlərdən danışıb.***





Nazir müavini şagirdlərin milli ruhda tərbiyə edilməsi, məktəb-şagird-valideyn əlaqələrinin möhkəmləndirilməsi və pedaqoji əməkdaşlığın gücləndirilməsinin təhsil müəssisələrinin qarşısında duran vəzifələrdən biri olduğunu diqqətə çatdırıb.

Hesabat yığıncağında təhsil sahəsində prioritet məsələlər üzrə görüləcək işlərə toxunan Məhəbbət Vəliyeva bununla bağlı bir sıra tövsiyələrini verib.

Sonra rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova tərəfindən təhsil müəssisələrinin 2018-2019-cu tədris ili ərzində fəaliyyətinə dair hesabatı dinlənilib.

**"Qəbələ"**

## 1 iyun-Uşaqların Beynəlxalq Müdafiə Günü qeyd edilmişdir



Qəbələdə 1 iyun–Uşaqların Beynəlxalq Müdafiəsi Günü təntənə ilə qeyd olunmuşdur.

Şəhərin Heydər Əliyev Parkıhəmin gün gül-çiçəklərlə, əlvan şarlarla bəzədilmişdi. Hər tərəf bayram libasına bürünmüşdü. Uşaqların sevincinin həddi-hüdudu yox idi.

Rayon uşaq-gənclər inkişaf mərkəzi hər il olduğu kimi bu il də uşaqlar üçün1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə geniş bayram tədbiri hazırlamışdı.

Rayon icra hakimiyyəti, təhsil şöbəsi nümayəndələrinin və şəhər sakinlərinin iştirak etdiyi tədbiri UGİM-in direktoru Rəfiqə Şirinova açmış, nitqində uşaq hüquqlarından, gələcəyimiz olan uşaqlara göstərilən dövlət qayğısından danışmış, uşaqları bu əlamətdar gün münasibətilə təbrik etmişdir.

Sonra RİH-nin məsul işçisi Absalam Hüseynov uşaqları və tədbir iştirakçılarını 1 iyun–Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik etmişdir. Tarix boyu hər bir dövlət, hər bir cəmiyyət gələcəyi olan uşaqların qayğısına qalmağı, onların fiziki və mənəvi cəhətdən böyüməsini təmin etməyi özünün ən ümdə vəzifələrindən biri hesab etdiyini vurğulayan Absalam Hüseynov çıxışında Azərbaycan dövlətinin bu mühüm məsələyə qayğı ilə yanaşdığını, bu gün müstəqil ölkəmizdə uşaqların diqqət və qayğı ilə əhatə olunduğunu diqqətə çatdırmışdır.

Tədbirdə UGİM-nin, Qəbələ İncəsənət Məktəbi şagirdlərinin və şəhər uşaq bağçaları kollektivlərinin bir-birindən maraqlı çıxışları alqışlarla qarşılanmışdır.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

## Tələbələr işəgötürənlərin fəaliyyəti ilə tanış olublar

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin "Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində dual peşə təhsili və təliminin pilotlarının yaradılması" layihəsi çərçivəsində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin aqroservis mütəxəssisi ixtisası üzrə təhsil alan birinci kurs tələbələri "Gilan Qəbələ Aqrotexservis" ASC-də və "Özəl aqroservis" müəssisəsində olublar.

Görüş peşə təhsilinə və təliminə hazırlıq mərhələsində işəgötürən müəssisələrin fəaliyyəti ilə tanışlıq məqsədi daşıyıb.

Tələbələr müəssisələrdə kənd təsərrüfatı texnikasının saxlanması, təmir və texniki xidmət işləri və texnikaların istismarı ilə yaxından tanış olub, "Gilan Qəbələ Aqrotexservis" ASC-nin təmir və xidmət emalatxanalarındakı iş prosesini yaxından izləyiblər.

Onlar "Özəl aqroservis" müəssisəsinin əkin sahələrini gəzib, regionda ilk dəfə əkilən bitki növləri haqqında məlumat alıblar.

**Səfa ASLANOV,**
**"Qəbələ"**